UOT 78
https://doi.org/10.59849/2311-8482.2025.3.192

SAMİRƏ TURAN*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA ANA VƏ QADIN OBRAZI

*Məqalədə Azərbaycan bəstəkarlarının yaradıcılığında ana və qadın obrazının təqdim olunma xüsusiyyətləri geniş şəkildə təhlil olunur. Qadın və ana obrazı Azərbaycan musiqisində təkcə ailə mühiti ilə məhdudlaşmır, həm də cəmiyyətin fəal, fədakar və mənəvi dayağı olan üzvü kimi əks olunur.Bəstəkarlar qadın obrazını müxtəlif janrlarda – operalarda, baletlərdə, simfonik poemalarda, mahnılarda və xalq musiqisinin emallarında fərqli üslublarla təqdim etmişlər. Fikrət Əmirovun "Ana" simfonik poemasında, Cahangir Cahangirovun "Əziz ana"sında, Emin Sabitoğlunun və Rauf Hacıyevin ana mövzusuna həsr olunmuş mahnılarında analıq duyğuları dərin emosional ifadələrlə musiqiləşdirilmişdir.Eyni zamanda, Üzeyir Hacıbəyli, Qara Qarayev, Soltan Hacıbəyov, Əfrasiyab Bədəlbəyli və digər klassik bəstəkarların əsərlərində qadın obrazları – Leyli, Nigar, Əsli, Sənəm, Gülnaz və başqaları – yüksək estetik və mənəvi keyfiyyətlərlə təqdim olunmuşdur. Qadına həsr olunmuş xalq mahnıları ("Telli", "Sarı gəlin", "Şeyda xanım" və s.) qadın gözəlliyi və daxili zənginliyi ilə bağlı xalq baxışlarını əks etdirir.Məqalədə həmçinin Sovet dövründəki zəhmətkeş qadın obrazları (Sürəyya, Qızqayıt, Şamama və s.) haqqında yazılmış mahnılar və filmlər xatırlanır. Müasir dövrdə isə qadının ictimai rolu xüsusilə vurğulanır və Mehriban Əliyeva timsalında müasir Azərbaycan qadınının nüfuzu və fəaliyyət istiqamətləri qeyd olunur.*

***Açar sözlər***: *musiqi, qadın, ana, bəsəkar, opera, mahnı,obraz.*

## Giriş

Azərbaycan musiqisi əsrlər boyu xalqın mənəvi dəyərlərini, ictimai baxışlarını və gündəlik həyat tərzini özündə əks etdirən bir sənət sahəsi olmuşdur. Bu sənətdə ana və qadın obrazlarının yeri və rolu xüsusi əhəmiyyət daşıyır. Bəstəkarlarımız qadını və ananı bəzən mərhəmət və şəfqət simvolu, bəzən qəhrəmanlıq və fədakarlıq nümunəsi, bəzən də gözəllik və ilham mənbəyi kimi təqdim etmişlər. Hər bir dövrdə qadına və anaya olan münasibət musiqi vasitəsilə özünün bədii təcəssümünü tapmışdır.

## Əsas təhlil

Azərbaycan bəstəkarları yaradıcılıqlarında fərqli janrlara üz tutaraq maraqlı və müxtəlif xarakterli musiqi obrazları meydana gətirmişlər. Onlar əsərlərində obrazların xarakterinə uyğun nümunələr təqdim etmiş, musiqi ifadə vasitələrinin zəngin imkanlarından - yəni dinamika, tembr, melodiya, harmoniya və polifoniya kimi vasitələrdən bacarıqla istifadə etmişlər. Məhz bu vasitələrlə bəstəkarlar fərqli xarakter daşıyan surətlər və obrazlar yarada bilmişlər...

Ana obrazı bütün dövrlərdə ədəbiyyatın, musiqinin və incəsənətin əsas mövzularından biri olmuşdur. Qədim yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanında ana obrazı Vətənin rəmzi kimi təqdim olunur və ana haqqı ilahi dəyər - Tanrı haqqı ilə bərabər tutulur. Dastanda ideal qadın və ana surəti yaradılmışdır ki, bu obraz Burla xatundur. O, həm iradəli və cəsur bir qadın, həm sədaqətli həyat yoldaşı, həm də şəfqətli və qayğıkeş bir anadır. Döyüşdə ağır yaralanan oğlu Buğacın sağalmasında onun ana südü və dağ çiçəyi ilə göstərdiyi qayğı, ana obrazını Vətənə məhəbbətin və torpağa bağlılığın təcəssümü kimi əks etdirir.

Ana obrazı Azərbaycan musiqisində müqəddəs və ülvi bir simvol kimi təqdim edilir. Bu obraz təkcə bioloji varlıq kimi deyil, həm də vətənə bağlılıq, mərhəmət, sədaqət, səbir və mübarizlik rəmzidir. Azərbaycan bəstəkarlarının yaradıcılığında bu obraz həm vokal, həm instrumental janrlarda yazılmış əsərlərdə təqdim olunmuşdur.

Bu musiqilərdən ana obrazını dərin, lirik və emosional çalarlarla təqdim edən Fikrət Əmirovun "Ana" simonik poemasını göstərmək olar ki, əsərdə musiqinin dinamikası, melodik

strukturu və orkestr rəngləri ananın kədər və fəxr hissini birləşdirir. Fikrət Əmirovun “Ana” simfonik poeması 1949-cu ildə bəstəkarın ən həssas və dərin emosional əsərlərindən biri kimi meydana çıxmışdır. Bu poema Fikrət Əmirovun klassik musiqiyə milli ruh və lirizm gətirmək cəhdlərinin parlaq nümunələrindəndir. Əsərdə ana obrazı yalnız fərdi bir şəxsiyyət kimi deyil, həm də müqəddəsliyə yüksəlmiş ümumiləşmiş sima - Vətən, mərhəmət və sevgi rəmzi kimi təqdim olunur ( 3, s. 90-110 ). Simfonik poema lirizm və dramatizmin vəhdətində qurulmuşdur. Fikrət Əmirov burada Azərbaycan musiqi folklorundan qaynaqlanan melodik materiallardan istifadə edərək, Qərb simfonik janrına milli məzmun qazandırmışdır. Əsərin əsas melodiyasında ana laylasını xatırladan yumşaq və kövrək bir intonasiya hakimdir. Orkestrin zəngin tembr imkanları sayəsində bəstəkar emosional dərinlik və psixoloji təsir gücü yaratmağa nail olur. Bu baxımdan əsər həm musiqi texnikası, həm də ideya dərinliyi baxımından Azərbaycan simfonik musiqisinin nadir nümunələrindən hesab olunur (1, s. 200-250).

Əsər musiqi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmiş və Fikrət Əmirovun yaradıcılığında ana obrazının nə qədər önəmli yer tutduğunu bir daha göstərmişdir. Ana obrazı bu əsərdə təkcə bioloji varlıq deyil, həm də mənəvi dayaq, vətənpərvərlik və insanlıq dəyərlərinin simvolu kimi canlandırılır.

Bundan başqa Tofiq Quliyevin sadə və ürəyə yatan melodiası ilə seçilən “Ana haqqında nəğmə” dinləyicilər tərəfindən sevilən bir musiqi nümunəsidir. Azərbaycan musiqisində gözəl, ruhu oxşayan mahnılar müəllifi Emin Sabitoğlunun  “Ana”, Rauf Hacıyevin “Ana laylası” mahnılarında da ana obrazı dərin, emosional hisslərlə təcəssüm etdirilmiş, övlad sevgisi, analıq duyğusu musiqi dili vasitəsi ilə dinləyiciyə çatdırılmışdır.

Ana haqqında yazılmış en uğurlu mahnılardan biri  ulu öndər Heydər Əliyevin qızı Sevil Əliyevanın anası Zərifə Əliyevaya həsr etdiyi “Ana” elegiyasıdır. Mahnı xalq artisti Müslüm Maqomayevin ifasında ən yüksək zirvədə bərqərar olmuşdur. Bundan başqa Cahangir Cahangirovun İslam Səfərlinin sözlərinə bəstələdiyi “Əziz ana”, Mehriban Əhmədovanın “Ana”, Elçin İmanovun “Ana” mahnıları, həmcinin bir çox bəstəkarların bu mövzuda yazdığı musiqilər hər zaman geniş dinləyici kütləsi tərəindən böyük rəğbətlə qarşılanmışdır.

Bütün dövrlərdə Azərbaycan qadını zərif olduğu qədər də ağıllı, qətiyyətli, sədaqətli, bacarıqlı və əməksevər olubdur. Azərbaycan qadını laylasıyla nəsillərin qanına, canına cəsarət, vətənpərvərlik, səmimiyyət hopdurub. İgid oğullar böyüdüb, onlarla çiyin-çiyinə döyüşə, yaşaya və mübarizə apara biləcək qızlar tərbiyə edib. Yurdumuzun şanlı tarixini vərəqləsək, hər səhifəsində qarşımızda bir təkrarsız qadın surəti canlanar: şərəfinə möhtəşəm türbə ucaldılan Mömünə Xatun, diplomat Sara Xatun, Tuti Bikə, Xan qızı Natəvan, xalq dastanlarının əfasnəvi qəhrəmanı Koroğlunun Nigarı, Qaçaq Nəbinin Həcəri və digərləri (4, s. 50).

Qadın obrazı Azərbaycan milli musiqisində ən cox müraciət olunan movzulardandır.Bütün dovrlərdəAzərbaycan bəstəkarlarinin demək olar ki hamıs - Üzeyir Hacıbəyli Leyli, Nigar, Əsli, Xurşudbanu, Gülnaz, Sənəm, Gülçöhrə və s., Müslüm Maqomayev Nərgiz, Qara Qarayev Yeddi gözəl, Soltan Hacıbəyov Gülşən, Əfrasiyab Bədəlbəyli Gülyanaq və s. kimi məhşur qadın obrazları yaratmışlar. Qara Qarayevin bəstələdiyi “Yeddi gözəl” baleti Nizami Gəncəvinin eyniadlı poeması əsasında yazılmış, müxtəlif ölkələrdən olan yeddi qadının obrazını musiqi dil ilə fərqli üslubda təqdim edir. Musiqidə hər bir qadın öz ökəsinin təmsilçisi kimi verilmişdir. Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletində qadın obrazı sevgi və fədakarlığın simvoludur. Musiqidə qadın obrazlarından danışırıqsa Azərbaycanın ilk qadın bəstəkarlarından olan Şəfiqə Axundovanın yazdığı “Ev bizim, sirr bizim” operasındakı Sevda obrazına diqqətçəkmək istərdik. Şəfiqə Axundova qadının baxış bucağını, onun daxili dünyasını operaya gətirən ilk sənətkarlardandır. Onun əsəri sırf texniki ustalıqdan çox, emotional (emosional) ifadə və psixoloji gərginlik üzərində

qurulub. Əsərin əsas qəhrəmanı Sevda obrazında müəllif zəif görünən, lakin daxilən güclü qadın arxetipini təhlil edir. Sevda ailənin sirrini qoruyan, əxlaqi dayaqları sarsılmayan, güclü iradəli bir qadın kimi təqdim olunur.

Azərbaycan xalq musiqisində də qadın və ana obrazları geniş yer tutur. Bayatılar, aşıq havaları və xalq mahnıları qadın duyğularını, analıq kədərini və sevgisini bədii dillə çatdırır. Bu folklor ənənələri bəstəkarlar tərəfindən emal olunaraq professional musiqiyə gətirilmişdir. Azərbaycan xalq musiqisində qadın və ana obrazları həm klassik muğamlarda, həm də xalq mahnılarında xüsusi yer tutur. Bayatılar, ağılar və laylalar qadının və ananın hisslərini, daxili aləmini, faciəsini və sevgisini musiqi dili ilə açır. Bu musiqi nümunələri bəstəkar yaradıcılığı üçün zəngin ilham mənbəyi olmuşdur. Qadın obrazı Azərbaycan milli musiqisində en cox müraciət olunan movzulardandır

Bir faktı qeyd etmək yerinə düşərdi ki, qadınlara həsr olunmuş, onların adlarını daşıyan saysiz hesabsız xalq mahnılarımızda var ki, bu gün də öz populyarlığın qoruyub saxlamışdır. Bəzən lirik, bəzən şən, emosional əhval ruhiyyədə yazılan. “Telli”, “Şeyda xanım”, ”Sona xanım”, “Apardı sellər Saranı”, “Qaragilə”, “Azərbaycan maralı”, “Sarı gəlin” və s. xalq mahnılarında qadın gözəlliyindən,onun daxili aləmindən, sadiqliyindən, və s. bu kimi xüsusiyyətlərindən bəhs olunur

Azərbaycanın Sovetlər birliyinin tərkibində olduğu dövrlərdə bəstəkarlar öz yaradıcılığında zəhmətkeş qadınlar haqqqında gözəl nəğməlğr yaratmışdılar. Sosialist Əməyi Qəhrəmanı, pambıqçı Sürəyyaya həsr olunmuş “Sürəyya” (bəstəkar Səid Rüstəmov), qocaman pambıqçı Qızqayıt Həsənovaya həsr olunmuş “Qızqayıt” (Elmir Mirzoyev) mahnıları yazılmışdı. O cümlədən Şamama Həsənova, Sevil Qazıyeva haqqında da filmlər çəkilmiş, ürəyə yatımlı nəğmələr qoşulmuşdu.

Musiqimizdə döyüşçü Azərbaycan qadını obrazı da yaradılmışdır. Belə bir obraza ilk dəfə olaraq dahi bəstəkar Müslüm Maqomayevin yazdığı “Şah İsmayıl” operasında rast gəlirik.Bu döyüşkən qadın Ərəbzəngi obrazıdır.

Əldə edilən azadlıq nəticəsində Azərbaycan qadını iqtisadiyyatda, səhiyyədə, pedaqogikada, incəsənətdə daha səmərəli fəaliyyət göstərməyə başladı və çox böyük uğurlar qazandı. Şair, bəstəkar və rəssamlarımız öz yaradıcılığında bütün sahələrdə çalışan qabaqcıl əmək qəhrəmanlarına, məşhur qadın alimlərə, həkimlərə, siyasətçilərə yer verməyə və onların obrazlarını yaratmağa başladılar. Bu yaradıcı nümunələr qadınların cəmiyyətin inkişafındakı rolunu daha da önə çıxardı, onların ictimai, elmi və mədəni həyatda tutduğu mövqeyin möhkəmlənməsinə səbəb oldu. Bədii əsərlərdə, musiqilərdə və rəsm əsərlərində qadın obrazı artıq təkcə ailə içində deyil, həm də cəmiyyətin fəal, təşəbbüskar və düşünən üzvü kimi təqdim olunmağa başlandı. Bu, qadının həm mənəvi, həm də intellektual potensialının tanınmasına və yüksək qiymətləndirilməsinə yol açdı (1, s. 412; 2, s. 85).

**Nəticə**

XX əsrin əvvəllərində çadrasını ataraq öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan Azərbaycan qadınının səsi artıq XX əsrın sonu – XXI əsrin əvvəllərində UNESKO və İSESCO-nun ali tribunalarından gəlir.O, bu gün cəmiyyətin həyatında mühüm rol oynayır. Məhz UNESCO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı və Birinci Vitse-Prezidenti Mehriban Əliyevanın timsalında bu gün müasir qadının cəmiyyətdəki rolunu müəyyənləşdirmək olar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Milli Ensiklopediyası. VI cild, Bakı, 2013.
2. Əliyeva S., Azərbaycan qadını: keçmişdən bu günə. Bakı: “Elm” nəşriyyatı, 2012.
3. Qasımova N. Azərbaycan simfonik musiqisi tarixi. Bakı: “Elm və təhsil” nəşriyyatı, 2010.

4. Rəcəbov O., Kazımov N., Axundova Y., Hüseyinova L. "Musiqi" dərsliyi. VI sinif üçün dərslik. Bakı: "Maarif" nəşriyyatı, 2016.

***Naxçıvan Dövlət Universiteti**
***E-mail: safarovasamire323@mail.com***

**Samira Turan**

**THE IMAGE OF MOTHER AND WOMAN IN THE WORK OF AZERBAIJANI COMPOSERS**

This article extensively analyzes the presentational features of the image of mother and woman in the work of Azerbaijani composers. In Azerbaijani music, the image of woman and mother is not limited only to the family environment, but is also reflected as an active, selfless, and spiritually supportive member of society.Composers have presented the image of women in different genres - operas, ballets, symphonic poems, songs and folk music arrangements - in different styles. In the symphonic poem "Mother" by Fikret Amirov, in "Dear Mother" by Jahangir Jahangirov, and in the songs dedicated to the theme of motherhood by Emin Sabitoglu and Rauf Hajiyev, maternal feelings are set to music with deep emotional expressions. At the same time, in the works of Uzeyir Hajibeyli, Gara Garayev, Soltan Hajibeyov, Afrasiyab Badalbeyli and other classical composers, female images – Leyli, Nigar, Asli, Sanem, Gulnaz and others – were presented with high aesthetic and moral qualities. Folk songs dedicated to women ("Telli", "Sari Gelin", "Sheyda Khanum", etc.) reflect the folk views on female beauty and inner wealth. The article also mentions songs and films written about hardworking female images from the Soviet era (Sureyya, Gizgayit, Shamama, etc.). In modern times, the social role of women is especially emphasized and the influence and directions of activity of modern Azerbaijani women are noted on the example of Mehriban Aliyeva

**Keywords:** *music, woman, mother,composer, opera, song.*

**Самира Туран**

**ОБРАЗ МАТЕРИ И ЖЕНЩИНЫ В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ**

В статье подробно анализируются особенности воплощения образа матери и женщины в творчестве азербайджанских композиторов. Образ женщины и матери в азербайджанской музыке не ограничивается семейной средой, но отражается как активный, бескорыстный и нравственно поддерживающий член общества.Композиторы представили образ женщины в разных жанрах – операх, балетах, симфонических поэмах, песнях и обработках народной музыки – в разных стилях. В симфонической поэме «Мать» Фикрета Амирова, в «Дорогой маме» Джахангира Джахангирова, в песнях Эмина Сабитоглу и Рауфа Гаджиева, посвящённых теме материнства, материнские чувства воплощены в музыке с глубоким эмоциональным выражением.В то же время в произведениях Узеира Гаджибейли, Гара Гараева, Солтана Гаджибекова, Афрасияба Бадалбейли и других композиторов-

классиков женские образы – Лейли, Нигяр, Асли, Санем, Гюльназ и другие – были представлены с высокими эстетическими и духовными качествами. Народные песни, посвященные женщинам («Телли», «Сары гялин», «Шейда ханум» и др.), отражают народные представления о женской красоте и внутреннем богатстве. В статье также упоминаются песни и фильмы, написанные о трудолюбивых женских образах советского периода («Суреййа», «Гызгайыт», «Шамама» и др.). В современное время особо подчеркивается социальная роль женщин, на примере Мехрибан Алиевой отмечаются влияние и направления деятельности современных азербайджанских женщин.

**Ключевые слова:** *музыка, женщина, мать, композитор, опера, песня.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 10.07.2025**
**Son daxilolma tarixi:18.08.2025**